




# Üzeyir Hacıbəyli adına Ağcabədi Uşaq İncəsənət Məktəbi

Məktəb Mədəniyyət Nazirliyinin 29 iyun 1965-ci il tarixli 131 saylı əmrinə əsasən 7 illik Uşaq musiqi məktəbi kimi fəaliyyətə başlamışdır. 12 müəllim 2 ixtisas üzrə, 50 nəfər xalq çalğı alətləri üzrə 26 şagird, fortepiano ixtisası üzrə 24 şagird kontingenti ilə fəaliyyətə başlayan məktəb 1986-cı ildən Üzeyir Hacıbəyli adına Ağcabədi şəhər uşaq incəsənət məktəbi kimi fəaliyyətini davam etdirmişdir. Məktəb 2 mərtəbədən ibarətdir. Binanın ümumi sahəsi 1200 (kv.m), həyatyanı sahə 600 (kv.m) , 1 zal 240 nəfər, 1 zal 70 nəfər, 1 kitabxana, 50 sinif otağı var. Hal-hazırda məktəbdə 8 ixtisas üzrə ( fortepiano, tar, qarmon, kamança, nağara, xanəndəlik, rəssamlıq, xoreoqrafiya) 120 müəllim 320 şagirdin təhsili ilə məşğul olur. Bu illər ərzində məktəbi 4100 şagird bitirmişdir. Məzunların 750 nəfəri orta ixtisas Musiqi Texnikumunu, 80 nəfəri Musiqi Akademiyasını, 40 nəfəri İncəsənət Universitetini bitirmişdir.

Bu illər ərzində məktəbin şagirdləri Beynəlxalq müsabiqələrdə, Respublika müsabiqələrində, musiqi festivallarında iştirak edərək, özünəməxsus yerlər tutmuşdur. Məktəbin şagirdləri 200-dən çox Diplom, Fəxri fərman və Tərifnamə ilə təltif olunublar. Bunlardan 30 nəfər Mədəniyyət və Turizm Nazirliyi tərəfindən, 17 nəfər rayon İcra Hakimiyyəti, 1 Beynəlxalq müsabiqə laureatı, 3 nəfər Mədəniyyət və Turizm şöbəsi, 7 nəfər isə zona müsabiqələrində təltif olunmuşdur. Onu da qeyd edək ki, xor kollektivlərinin Respublika müsabiqəsində 2 nəfər Laureant,



1 nəfər Diplomant, 3 nəfər Fəxri fərman, Xalq Çalğı Alətləri Respublika müsabiqəsində 3 nəfər laureat, 4 nəfər Diplomant, 3 nəfər Fəxri fərmanla təltif olunmuşdur.

Rəssamlıq üzrə 1 nəfər Beynəlxalq Rəsm müsabiqəsində Xanti-Hellasda keçirilən rəsm müsabiqəsində 141234 iştirakçı arasında 1 yer və medalla təltif olunmuş, 7 nəfər Respublika müsabiqəsində Fəxri fərmanla və 2 nəfər Diplomla təltif olunmuşdur. Xanəndəlik üzrə 2 nəfər Laureat adını almışdır.

Məktəbin Qarabağ rəqs qrupu 2009-cu ildən fəaliyyət göstərir. Bu müddət ərzində rəqs qrupu 15 ədəd kubok, 141 ədəd 1-ci dərəcəli Diplom, 1 ədəd medal, Türkiyə Respublikasının Antaliya şəhərində keçirilən Beynəlxalq Balet Festivalında Təşəkkürnamə, 6 ədəd sertifkat və hədiyyələrlə mükafatlandırılmışlar.

Azərbaycan Gənclər İttifaqı və Azərbaycan rəqs Assosiasiyasının dəvəti ilə 2019-cu il aprel ayının 6-7 də Gürcüstan Respublikasının Tbilisi şəhərində keçirilən "Qafqaz kuboku" rəqs yarışmasında "Qarabağ" rəqs qrupu Azərbaycan bayrağını zirvələrə qaldıraraq Vətənimizi layiqincə təmsil edib. Kollektivimiz 10-15 yaşlı qruplar arasında 2 ədəd kubok və 2 ədəd 1-ci dərəcəli diplomla təltif olunub.

Son illər Xoreoqrafiya şöbəsinin məzunları Səfərova



Sara, Cəfərova Fatimə, İsmayılova Nuranə Bakı Xoreoqrafiya Akademiyasında, Fortepiano şöbəsinin bir neçə məzunu Azərbaycan Milli Konservatoriyasında, Səs Şöbəsinin məzunu Tural Niftəliyev Azərbaycan Milli Konservatoriyasında, Kamança şöbəsinin məzunu Qasımzadə Zeynəb bu il 2022-ci ildə Azərbaycan Milli Konservatoriyasında təhsil alırlar.

Həmçinin məktəbin məzunu Tural Niftəliyev hal-hazırda Qarabağ Muğam Mərkəzində direktor vəzifəsində çalışır. Məktəbin digər məzunlarından olan Günel Kərimova isə Üzeyir Hacıbəyli adına uşaq incəsənət məktəbində direktor müavini kimi fəaliyyət göstərir.

Tədbirlər planına uyğun olaraq, bütün tədris ilində, həmçinin məzuniyyətdə olsalar belə, məktəbin fəal müəllimləri ümumi rayon tədbirlərini təşkil edir, digər müəssisələrlə və öz məktəblərində mütəmadi tədbirlər həyata keçirirlər. Məktəbin fəal həyatında rol oynayan müəllimlər - Fərhadov Həsən, Əliyev Xəqani, Babayeva Nərgiz, Səfərova Gülşən, Kərimova Günel, Abışzadə Tünzalə, Şi-



rinli İlahə, Abbasova Çinarə, Abdullayev Rəşad və digər müəllimlər var.

Bu il Şagirdlərdən Məcid və Sədaqət Şuşada Vaqif poeziya günlərinə qatıldı. Şuşanın dağlarının qoynunda rəsm əsərləri çəkdilər, milli alətimiz olan tar ifa etdilər, Orda Azərbaycan Respublikasının Mədəniyyət Naziri cənab Anar Kərimovla görüşüb, xatirə şəkli də çəkdirdilər.

İstedadlı və bacarıqlı, hər zaman bütün tədbirlərdə yaxından iştirak edən şagirdlər - Məmmədov Şuşalı Məcid, Məmmədova Sədaqət, Məmmədov Vahid, Əliyeva Səkinə, Abbasova Xədicə, Qəribov Murad və digər yetirmələr böyüyür, inkişaf edir.

Hər il sentyabr ayının Bilik günündə, Üzeyir yurdunda Üzeyir Hacıbəyli adına uşaq incəsənət məktəbi Üzeyir Hacıbəylinin hər il doğum gününü, həmçinin digər bəstəkar və rəssamlarının doğum və anım günlərini qeyd edirlər. Zəfər günümüz, Bayraq günü, Yeni il bayramı və həmrəylik günü, Qələbə günü, Milli Müstəqillik günü, 1 iyun Uşaqların Beynəlxalq Müdafiəsi günü, 15 iyun Milli Qurtuluş günü, həmçinin iyun ayında 2021-2022-ci tədris ilinin başa çatması ilə əlaqədar «Şəhidim Xudayar» adlı Hesabat konserti ilə çıxış etdilər. İyun ayının 16-da Ağcabədi Regional Mədəniyyət İdarəsi Üzeyir Hacıbəyli adına uşaq incəsənət məktəbi olaraq, xüsusi qayğıya ehtiyacı olan uşaqların, Şəhid və qazi ailələrinin övladlarının iştirak etdiyi Yay festivalında şagirdlərimiz uğurlu çıxış etmişdir. Xurşidbanu Natəvanın ad günü, Vaqif poeziya günləri, Azərbaycan Respublikasının Prezidenti, Ali baş komandan cənab İlham Əliyevin 2022-ci ilin «Şuşa ili» elan edilməsi ilə əlaqədar bir neçə silsilə şəklində tədbirlər həyata keçirməkdə davam edilir.

Şanslı və xoşbəxt kollektivdir Ağcabədi Regional Mədəniyyət İdarəsinin tabeliyində olan Üzeyir Hacıbəyli adına uşaq incəsənət məktəbinin kollektivi və şagidləri Qarabağın dilbər guşələrindən biri olan Üzeyir yurdunda, Üzeyir torpağında Üzeyir Hacıbəyli adını daşıyan, yaşadan müəssədə çalışır və daima



Vətənpərvər ruhda təhsil alırlar. Azərbaycanın mədəniyyət beşiyi, Şərqin Konservatoriyası olan Şuşa bizimdir, Üzeyir bəy bizimdir, Qarabağ bizimdir, Qarabağ Azərbaycandır!!!

*Alimin çəkdiyi Azan bürüdü,*
*Üzeyir yurdunu, Bülbül yurdunu.*
*Tarixdə yeni bir tarix yaratdıq,*
*Tüm dünya tanıdı bizim ordunu,*
*Türkün boz qurdunu, odlar yurdunu.*
*Məscidlərdə sıra ilə, nizamla,*
*Şəhid ruhu mələk kimi dövr etdi.*
*Cənnətin ətrini Şuşada daddıq,*
*İllərin acısı, həsrəti bitdi,*
*Tanrı Qarabağı bizə bəxş etdi.*
*Şərqin mədəniyyət beşiyi Şuşam,*
*Üzeyirin evi, eşiyi Şuşam,*
*Millətcə başından duman dağıtdıq,*
*Yenə Xarı bülbül başına tacdır,*
*Yenə Cıdır düzü tac üstə qaşdır.*
*Şeirin, muğamın, sözün qapısı,*
*Mənim Qarabağım Anam anası,*
*Üzeyir gününü qürurla andıq,*
*Haqqın halal etsin Şəhid anası,*
*Torpağı canıyla aldı balası.*
*Otuz il qərənfil hey ağlasa da,*
*Yenə Xarı bülbül güldü Şuşada,*
*Dəmir yumruq olub, haqqı anladıq,*
*Baş Komandanımız dedi, oldu da,*
*Qarabağ Azərbaycandır və nida !*

**Üzeyir Hacıbəyli adına uşaq incəsənət məktəbinin tədris işləri üzrə direktor müavini Günel KƏRİMOVA**